*X.Mirzəyeva. Mirzə Möhsün Xəyalinin “Mərsiyə”si*
*// Əlyazmalar yanmır. 2021, №2(13), s.207-216.*

UOT: 801

**Xoşqədəm Mirzəyeva**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı ş. İstiqlaliyyət küç.26*
*e-mail: mirzayevakhoshgadam@gmail.com*

# MİRZƏ MÖHSÜN XƏYALİNİN “MƏRSİYƏ”Sİ

Mirzə Möhsün Xəyali Azərbaycanın şairlərindən biri olub, Quba ədəbi mühitinin yetişdirməsidir. Şairin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinələrində B-514, B-1523, B-2677, B-2009 şifrli əlyazmaları saxlanılır. Bunlardan biri B-2677 Salman Mümtaz tərəfindən tərtib olunmuşdur. Digər əlyazmalar (B-514, B-1523, B-2009) eyni xətlə yazılımşdır. B-514, B-1523 şifrli əlyazmalarda katib və tarixi ilə bağlı heç bir qeydə rast gəlmədik. Ancaq B-2009 şifrli kitabda hicri tarixi ilə 1311 (1894) qeydi mövcuddur. Eyni xətlə yazıldığına görə, fikrimizcə, üç əlyazma da eyni vaxtda, eyni katib tərəfindən qələmə alınmışdır. Hər 3 əlyazmada şeirlər iki sütunda çəpəki şəkildə yazılmışdır. Şairin “Divan”ı ardıcıl olaraq B-514 (189 qəzəl), B-1523 (36 qəzəl) şifrli əlyazmalarda verilmişdir. B-2009 əlyazması M.M.Xəyalinin ancaq mərsiyələrindən ibarətdir. Əlyazmanın təsvirini təqdim edirik.

Ölçüləri 22.4 x 9.5 olan əlyazma 26 vərəqdən ibarətdir. Hər vərəqdə 8 sətir var. Cildi boz rəngli qalın kağızdır. Əlyazmanın üst cildində B-2009/13357, qovluğun üzərində isə B-2009/3634 şifri verilmişdir. Sol qapağında 3 ədəd ayrı-ayrı xırda ölçülü vərəqlərdə əvvəlki şifrləri verilmişdir: 2/X-53, A/4 124, 14941. Kitabın 1a səhifəsində sərlövhədə Xəyali “Mərsiyə” yazılmışdır. Bununla bərabər möhür və 2/X-53 şifri mövcuddur. Əlyazmanın 2a və 25 a səhisindəki şeirlər mətnə daxil deyil, bu 2 mətn solğun karandaşla səliqəsiz (qaralama) yazılmışdır.

2 a səhifəsində

*Kaş bu gün bu dəmdə olaydı Kərbəladə,*
*Qurbanları tir ilən kəsdilər minadə.*
*Doğradılar Əkbəri zəmin Kərbəladə,*
*Bu gecə qan ağlayır ərş-xuda şeir.*

2 b səhifəsində farsca qeydlər var, hicri tarixi ilə 1311-ci il (1894) göstərilmişdir: “Katib məhruf Mirzə Möhsün Qubeyi Xəyali təxəllüsü. Əz təxəyüllate xod fi ğürreyi mahi məhərrəm həram 1311”.

*Hər ki xanəd dua təme darəm,*
*Zə anki fi bəndeyi-günahkarəm.*

3 a səhifəsində “Mərsiyə sədai” başlığı ilə əsas mətn başlayır. Əsas mətnin transfoneliterasiyasını təqdim edirik:

*Çün yetdi Hüseyn ibn Əli Kərbəlayə. (3 a)*
*Xurşidü fələk ərzü səha gəldi nəvayə.*

*Cəm oldi o səhraya o gün dərdi-müsibət.*
*Aləmdə xəyalə nə qədər gəlsə küdurət,*
*Əmr oldı qəzavü qədərə eyləyə qismət,*
*Nəsfi verilə Zeynəbə nəsfi şühədaya.*

*Zeynəb o gecə yatmadı ğəm aldı qərarın,*
*Torpağa qoyub sübhə kimi lalə üzarın.*
*Ol yerdə çəkən ah-fəğan, naləvü zarın (3 b)*
*İstərdi desin sərvər deyən al əbayə.*

*Ahəstə gülüb dərdə alub zülfin əlinə*
*Əmr etdi açə türrələrin nazlu Səkinə.*
*Şur ilə gedüb ərz eyləsün sərvərinə*
*Nə yerdir bu yer oxşarı var bəhr-bəlayə.*

*Sultanı-cihan məhzərinə yetdi bu əhval*
*Təğyir tapıb rəngi-ruxi ağladı dərhal.*
*Bülbül kimi dil açdı minacatə bu minval, (4 a)*
*Yarəbb, sən özün səbr əta qıl əsrarə.*

*Sora o şahənşaha bacısın etmədi xəbərdar.*
*Bu yerdə məni öldürəcək ləşkəri-küffar*
*Sinirlə gedəcək Şama bacısı abid bimar.*
*Əlbəttə gərək səbr edəsüz cövri- cəfayə.*

*Yalvarma, bacı, düşmənə canım sənə qurban*
*Ahəstə gözün yaşını tök, eyləmə əfğan.*
*Açun başuvi bərhəm olur aləm imkan*
*Lövhü qələmü ərş batar cümlə qərayə.*

*Mərdanə bacı, sən bu gün əzm səfər eylə*
*Təslim olmur atı qəzavü qədər ilə.*
*Göz yaşına həm durma Xəyali xəbər eylə*
*Səd ah-fəğan şur ilə gəlsün bu əzayə*

*Çün gördi şəhidin tökülür xeyməyə leşkər (5 a)*
*Səsləndi hanı şiri Əbu Əlfəzl dilavər*

*Gör nuş eyləyüb Həzrət Abbas o şahə*
*Xurşid vəfadən bu xitab oldu o mahə*
*Sürətlə yetür qardaş özün bir bu sipahə*
*Nə məlulə hər kim bürüyüb aləmi-yeksər*

*Bundan gər ola qəsdləri cəng ədavət*
*Əl açma acuqlanma sən ey mədən qeyrət.*

*Sövlə verələr bu gecəni bizlərə möhlət (5 b)*
*Ta sübh qıyamət kimi bərpa ola məşhər.*

*Mindi atına sövtilə ol şahi-tənnaz*
*Balu pər açub züğən üstünə şəhbaz.*
*Anqa kimi ədayə tərəf eylədi pərvaz*
*Düşmən qabağın kəsdi onu badei-Heydər.*

*Hey ordi əmr Səidə o zər ğam zəmanə*
*Doldi gözi yaş ilə gəlüb şur fəğanə.*
*Göstərdi Hüseyni bu Əli oğlidir ya nə (6 a)*
*Qorxun qəzəb eylər sizə kim xaliqi-davər.*

*Ey ğövm, uzaq dur bu əməl şərmi-həyadən*
*Nə istəyə söz bilmiyirəm al əbadən.*
*İnsaf degil zəhrlü peykan cəfadan*
*Öz qanın içə su ivazında Əli Əsğər.*

*Bir güş verün naleyi ətfal betülə*
*Su yollarını bağlamısuz ali-rəsullah.*
*Min ox urasuz xoşdu min zari-məlulə (6 b)*
*Razi degiləm qanə bata kakili-Əkbər.*

*Bundan o yanə-yanə bulundu məlalə*
*Ölməkdədir aşiq olanun zövq-vüsalə.*
*Bəsdir sənə bu söz görər, əlbəttə, Xəyali*
*Divan qəzadən nə olub şəxsə müqəddər.*

*Çün gördü batub Əkbəri al qanə Səkinə (7 a)*
*Döndərdi yüzin şahənşaha Səkinə.*

*Düşmüş üzini bildi o dəryayi-bəlayə*
*Ərz eylədi sultan zənin, nuri- səmayə.*
*Dinc olmağa yüz şövqilə gəldün bu minayə*
*Qurban ola bir sən kimi qurbana Səkinə.*

*Qoy mən də gəlüm başu açuq etmə məlamət*
*Bəlkə gələlər rəhmə bu birəhm cəmaət.*
*Bir-bir deməgə dərdi-ğəmin çəkdi xəcalət (7 b)*
*Qoydu əlini zülfi-pərişana Səkinə.*

*Əcz ilə o dəm sölədi ey bais imkan*
*Əshabın ölən ölüb cümləsi olsun sənə qurban.*
*Bir fikir ilə bəlkə bu Əli Əsğəri ətşan*
*Burdan apara nazilə bir yanə Səkinə.*

*Şahənşahi-din eylədi ol mahə nəzarə*
*Bir ah çəkib sölədi təqdirə nə çarə.*

*Əlbəttə gərəkdir gedəsən özgə diyarə (8 a)*
*Mənsiz ola mənzil sənə viranə Səkinə.*

*Bir azca yanımda gəl otur tuti məğalım*
*Qurban ola sənə mahirxa  can ilə malım.*
*Lazim görünür xəstə gidə Şamə əyalım*
*Zülmlə bu gün xeymələrim yanə Səkinə.*

*Əhvalı bilüb saldı Səkinə başə qarə*
*Zülfin dağıdub açdı dilin naləvü zarə.*
*Bildi vətənə getməyəcək bir də dübarə (8 b)*
*Yandı bu qəmü dərdə çü pərvanə Səkinə.*

*Olmuş bu müsibətdə xəyali belə mamur*
*Edsün bu nihan rəmzi genə aləmə məşhur.*
*Hərgüz nə qədər ağlaya çox-çox ola məsrur.*
*Çün mail olur dideyi-giryanə Səkinə.*

*Ey oğlı ölən, halı pərişan, bacı Zeynəb. (9 a)*
*Açma başuvi, eyləmə əfğan bacı Zeynəb.*

*Axır səfərimdir gedürəm məclisi yarə*
*Gəlməm bu məkanə dəxi mən bir də dübarə.*
*İmdi yeri var bağlagilən başuva qarə*
*Eylə yüzivə zülfüvi əfşan bacı Zeynəb.*

*Yaxşı qulaq asın bu sözə ey mahi-Mədinə.*
*Qoyma başıni açmağa bu nazlu Səkinə.*
*Məndən sonra ver səbri-təsəlli o həzinə (9 b)*
*Canım  o əzizimdü bənim can bacı Zeynəb.*

*Meydanə bu gün mən bilürəm xəstə gəlirsən*
*Zənciri-cəfavü sitəmə bəstə gəlürsən.*
*Əlbəttə soyulmuş bədənim üstə gəlirsən*
*Gün tək başı açıq didəsi giryan bacı Zeynəb.*

*Ağuşa çəküb nəşimi gəl şuri-nəvayə*
*Görmək diləsün başımı bax nuki-cidayə.*
*Bacı ucadan ağlama səbr eylə bəlayə (10 a)*
*Ağlatma məni, mən sənə qurban bacı Zeynəb.*

*Can verdi susuz candan əzizim Əli Əsğər*
*Kuyim kimi qanıyla dolub kakili Əkbər.*
*Billəm bədənim girib bəladə qala bir sirr*
*Ta üç günəcən qanıma ğəltan bacı Zeynəb.*

*Şamə aparar sizləri bu ləşkəri-küffar*
*Tənə dil açar sübhü məsa qövmi-sitəmkar.*

*Həm söhbətüvüz nalə ilə abidi- bimar (10 b)*
*Mənsilüvüz olur məscidi-viran bacı Zeynəb.*

*Bu qüssəni yox yazmaqa hiç kimsədə taqət*
*Həvarə çəkər xamei-təhriri-xəcalət.*
*Dili- xəstə Xəyali ola taruz qiyamət*
*Bu dərdi-ğəmi möhnətə nalan bacı Zeynəb.*

Vəli eyzən

*Gül ğönçəsi tək Əsğəri aldı ələ Leyla. (11 a)*
*Süsən kimi göz açdı o novruzgülə Leyla.*

*Solmuş yüzinə düşdi gözi gəldi fəğanə*
*Yandı cigəri ah ilə od saldı cahanə.*
*Başdan ayağa dərdi-ğəmə oldı nişanə*
*Ney tək ol müsibət güni gəldi dilə Leyla.*

*Kimdür məni tək sövlədi ol mahi- üzarə*
*Pabəndi ola bir sən kimi xurşivi-nigarə.*
*Ağlardı basub bağrına eylərdi nəzarə (11 b)*
*Gülşəndən o gün ayru düşən bülbülə, Leyla.*

*Aç bir gözivi eylə nəzər ruhi-rəvanım*
*Gül tək saralan rəngüvə qurban ola canım.*
*Əfv ed məni bir qətrə suya yoxdu gümanım*
*Səbr eylə gözüm nuri düşüb müşkülə, Leyla.*

*Axdı gözündən yaş gedüb taqəti-tabı*
*Döndürdi yüzin Əkbərə qıldı bu xitabın.*
*Bir yanə apar gəl məni sən et səvab (12 a)*
*Qoyma gedə yüz düşmən olan məhfələ Leyla.*

*Sənsən bu yaman gündə mənim püştü pənahım*
*Az qaldı cahana sala od naləvü ahım.*
*Ğeyr əz analıq mən bilürəm yoxdu günahım*
*Səndən irəli yaxşıdu hərgah ola Leyla.*

*Al könlümi bir dəm ələ səbr eylə zəmanə*
*Ta mümkün ola söyləməgə sirr nihanə.*
*Toprağa qoyub sən kimi bir tazə cəvanı (12 b)*
*Düşvardı çox çəksün özün mənzilə Leyla.*

*Səmi ilə xəyalı götür əhvaluvi hali*
*Söz pərdədədir düşməgilən özgə xəyalə.*
*Yazmışdı qəza katibi tumar məlalı*
*Al qanə batub Əkbər düşsün çölə Leyla.*

*Əzm etdi çün cihadə Kərbəladə Əkbər (13 a)*
*Dutdi o gündə bişək zülmət cihana yeksər.*

*Şövqilə xeymələrdən qoydimi ayağ kənarə*
*Gördi durub babası düşmüş fəğani-zarə.*
*Səmti-Fıratə məhzun hərdəm edüb nəzarə*
*Deyür ğərib, yalğuz qaldım gəl, ey bəradər.*

*Sultan Kərbəlanı görçək o mah surət*
*Ərz eylədi yetdüpdür atma mah dərd-möhnət.*
*Dünya yüzində varmı bundan böyük müsibət (13 b)*
*Tənha bu çöldə bir mən, bir sən bu qədər leşkər.*

*Leyla görüb özündən rəmidəvəş ğəzalin*
*Məzmun söhbətdən dərk eylədi xəyalin.*
*Bildi o gündən artuq görə bilməz cəmalın*
*Etmədi yəqin batar tez al qanə zülfi-ənbər.*

*Ağuşa çəkdi can tək ağaz edüb fəğanə*
*Səpdi gülabı gözdən əliylə ördi şanə.*
*Dedi oğul bir az ver zülfdən nişanə (14 a)*
*Olsun yanımda daim ta vəqt ruzi- məhşər.*

*Harda Xəlil oğlun dəxi eylədi minadə*
*Hacər nə vəqt getdi Şamə tərəf piyadə.*
*Zəhra, çöküpdü möhnət, amma nə mən bəladə*
*Zülfünə yerdə olmuş mən tək yüzinə müəccər.*

*Ayrulmaram yanından çün aşiqəm cəmalə*
*Məşuqə sayəsində aşiq yetər vüsalə.*
*Qəlbim yanar düşəndə bu sərvi-qədd xəyalə (14 b)*
*Məcnunsifət dollanam səhranı zarı-müztər.*

*Təhrir qıl Xəyali, sən də bir ah-zar*
*Vermə gönül cihanə bir əksdür qərarı.*
*Bu ərseyi-fənadə əmrün nə etibarı*
*Təhsil mərifətdir hər bir səvabə məsdər.*

Mərsiyeyi cuş:

*İzn cihad almışam şiri-Xudadan bu gün (15 a)*
*Bir dolu cam içmişəm mücr-bəladən bu gün.*

*Şiri-qəzənfər fərəm mehr vəfa göstərəm*
*Aləmə bir gövhərəm kan səxadan bu gün.*
*Çəksəm əgər sizlərə tiği-şərərbari-tiz*
*Su yerinə qan yerür Kərbi-bəladən bu gün.*

Vəli eyzən

*Ya Əli, Kərbəlayə gəl Zeynəbi binəvanı gör (15b)*
*Badi-sitəm xəzan edüb gülşəni-Neynəvanı gör.*
*Tazə ərusə qıl nəzər zülfini məcər eyləmiş*
*Şimri-şərir yer əlində bir ismət müctəbanı gör.*
*Cövrü cəfavü zülmlə bir ipə bağlu qönçə tək*
*Leşkəri İbn Səd ara itrət Mustafanı gör.*

Vəli eyzən (16 a)

*Gəl əlimdən algilən Əsğəri, ya Zeynəbə.*
*Solupdu  gör ğönçə tək ləbləri, ya Zeynəbə.*
*Görüb bəladə susuz Əkbərə qurban olub*
*Qanıyla yeksər dolub peykəri ya Zeynəbə.*
*Qətlinə gələndə sinəmə tök zülfüvi*
*Şurilə çək yanıma Əkbəri, ya Zeynəbə.*

*Qana batub tazə cəvanım, bacı (16 b)*
*Təşnə olub ruhi-rəvanım, bacı.*
*Başə urub ağladmışam, qalmayub*
*Candə dizi-tabı-tavanım, bacı.*
*Gidməz ürəkdən bu cəvan yarəsi*
*Var nə qədər sinədə canım, bacı.*

Vəli eyzən

*Əkbərini görməgə Şah-şəhidan gəlür (17 a)*
*Zeynəb açub başını zülfi-pərişan gəlür.*
*Qarə geyin şiələr Kərb bəlayə baxun*
*Şövqilə qan içməgə Əsğər Ətşan gəlür.*
*Təşnə olan Əkbəri əldə Əli Əsğəri*
*Varisi-xeyrülbəşər didəsi giryan gəlür.*

Vəli eyzən

*Vay Ələmdar oğul Zeynəbə qəmxar, oğul (17 b)*
*Heydər edüpdür səni leşkərə sərvər, oğul.*
*Yatma Hüseynim qalub yek tənha bu gün*
*Geyri təva min fəda qatil küffar, oğul.*
*Qanına ğəltan olub novgül baği-vəfa*
*Lütfilə bax gör dutub dura sinei-xar, oğul*

Vəli eyzən

*Şahi-şəhidan kim görüb bəla kim görüb (18 a)*
*Çərx-sitəm peşədən cövrü cəfa kim görüb*
*Oğluni, qardaşını dəşt-bəladə bu gün*

*Ümmətə qurban verən şir-Xuda kim görüb.*
*Qardaşına baş verən Həzrət Abbas tək*
*Mədəni həcv kərəmi-kan vəfa kim görüb.*

*Heç analar görməsün oğlunu Leyla kimi (18 b)*
*Qana batan kakileyi-hümza kimi.*
*Ağlar Əli Əkbərə, nalei edər Əsğərə*
*Şur salub könüllərə Həzrət Zəhra kimi.*
*Başı açuq dideyi-tər təzə cəvanımdır*
*Naleyi-fəryad edər bülbülü şeyda kimi.*

Vəli eyzən

*Aləm əlündən gəlür etməgə dad, ey fələk (19 a)*
*Eyləmədin bir zaman Zeynəbi şad, ey fələk.*
*Əsğərə sevdirmədin, yandı susuzdan dili*
*Bir belə gün etmədün Heydəri yad, ey fələk.*
*Sən necə gördün rəva bir belə zalım, ey fələk*
*Zeynəbi-dilxəstəyə edən ziyad, ey fələk.*

Vəli eyzən

*Heç bacı Zeynəb kimi dəhrdə xar olmasun. (19 b)*
*Dərdi-müsibət çəküb möhnətə yar olmasun .*
*Oğlu kəfən geyməsün əgninə toyi görməmiş*
*Qardaşı əldən gedüb şərə düçar olmasun.*
*Bir şəmi-didə tək zari-ğəribəlikdə*
*Həsrətlə can verüb tozlu məzar olmasun.*

Vəli eyzən

*Harda qalub,ey  üqab, qolsuz ələmdarımız (20 a)*
*Dərdi-müsibət güni yavər qəmxarımız.*
*Al-rəsulə onun ğeyrətinə tapşırub*
*Sahibi-müstağ bərsəri  Heydər kərrarımız.*
*Olsa ol sərdari-din aləmi zülmətə dutar*
*Qətlə yetir zülmilə sərvər-salarımızı.*

*Görüm səni qan olasan, ey Fərat. (20 b)*
*Mən kimi atəşan olasan, ey Fərat.*
*İçmədi  su səndən Əli Əsğarım*
*Xak ilə yeksan olasan, ey Fərat.*
*Qaldı gözüm səndə bu gün həşrə tək*
*Dəhrdə giryan olasan, ey Fərat.*

Vəli eyzən

*Ümmə bu baş kimindür dənizdə qan ağlayur (21 a)*
*Gözdən olur daima əşki-rəvan ağlayur.*
*Hər tərəfə gedəndə Ümmə gözi məndədir*
*Mən Əli dami-dünyadə idüb fəğan ağlayur.*
*Nə oğli, nə qardaşı yoxdu bu ləbi-təşnənun*
*Nalə yetüb könüllərə pirü cəvan ağlayur.*

Vəli eyzən

*Qasım ibn Həsənim, ey kirvə (21 b)*
*Sərvər gülgün kəfənim, ey kirvə.*
*Başə çəkin dərd-bəla canımını*
*Saqi, gəl piri Həsənim, ey kirvə.*
*Qarə geyüb salma qan ağlayın*
*Novgüli-şahi-zəmanım, ey kirvə.*

Vəli eyzən

*Ya ibta, ya Əli Kufədən zar ağladsam (22 a)*
*Oğlu ölən Zeynəbim lalü nihan ağladsam.*
*Şərə əsir olmuşam zülfi-siyah mücərrim*
*Izzətim əldən gedüb dəhrdə xar ağladsam.*
*Sübhi-məsa gözlərim görməgə qardaşımı*
*Həşrə kimi Şamidə tozlu məzar ağladsam.*

*Ağlayun, ey dustan, Hüseyn kimi sərvərə (22 b)*
*Tapmadı bir qətrə su versün Əli Əsğərə.*
*Aldı o tifl susuz qucaqına ağladı*
*Öpdü iki yüzindən deyərdi Əli Əkbərə.*
*Açdı duaya əlin sövlədi ya Zülcəlal*
*Səbr əta qıl bu gün izzəti-peyğəmbərə.*

*Görüb bəladən apar, ey Əli Əkbər, məni (23 a)*
*Verməgilən düşmənə şəbi-pinbər məni.*
*Firqət Abbasdə başə örüb ağlayın*
*Sübh-məsa görməsün şimər sitəmkar məni.*
*Qoyma düşüm çöllərə saxla yanunda bu dəm*
*Çünki sənə tapşurub Hüseyn sərvər məni.*

*Ağlamağa növcavan Əkbərə xoş gəlmisüz (23 b)*
*Verməğə bir cürrə su Əsğərə xoş gəlmisiz.*
*Həzrət Abbas ölüb düşt bəladə bu gün.*
*Dutmağa yas bir belə sərvərə xoş gəlmisüz.*
*Zöhreyi-Zəhra gəlür məclisə qan ağlayun.*
*Lütfilə bəlkə desün sizlərə xoş gəlmisüz.*

*Şəmləri söndürün, şəmi ğəriban gəlür.*
*Piri-cəvan ağlayun, mövsümi-əfğan gəlür*
*Camları doldurun şərbəti-qənd-abilə*
*Təşnə bu gün can verən Əsğər atşan gəlir.*
*Nalə idün şıələr şur ilə bu məclisə*
*Varisi-xeyrülbəşər, sinəsi suzan gəlür.*

*Bu gecə, ey dustan, gərəkdü qan ağlayaq. (24 b)*
*Başə urub sübhəcən pirü cəvan ağlayaq.*
*İsdi qum üstə susuz şahi şühədan Hüseyn*
*Yaralu ahu kimi veripdü can ağlayaq.*
*Qolları olmuş qələm Həzrət Abbasa biz*
*Çarı edüb didədən əşk-rəvan ağlayaq.*

Fi kəlamı Seyyid (25 a)

*Töküldi xəmim masumə kişə bacı, ya Hüseyn*
*Olur şir-zinun şah Mədinə ya Hüseyn*
*Fəda olum büstüvə fəğanə gəlmə can bacı*
*Gərəkdir xeyməm odlana əsir nalәvan bacı*
*Dutuldu gün yetişməz ayağın bu dəm şəhadətə*
*Siyah şam və gərgiyan gəlübdü cümlə- arisə*
*Vir əl əsində zülm ilə düşə əl ismətə*
*Təbibə tab eyləməz qızun Səkinə bacısı*
*Vurrullar bu cöldə keçmişəm Səkinə xəta edən*
*Əli Əkbərim kimi cəvan gülüzarısın..*
*Cənazəsə vurula ox bu qum hər kənarından*
*Yaraların çox incidir bu tür gözimi qan bacı*
*Qolumu bağladun Hüseyn tənəsi qulam aşiğina*
*Başımdan aldı məhrim bu şəhri- şum bihəya*
*Çəkür qatarı kövğəsi qəra amandı dən hövli-dua*
*Haraya gəl əlac qıl Şah Hüseynə bacı*